**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Magistratura Mərkəzi**

*Əlyazma hüququnda*

**Kamalzadə Təbriz Fehruz oğlu**

# “Neft strategiyası və xarici investisiyaların milli inkişaf strategiyasında rolu”

mövzusunda

# MAGİSTR DİSSERTASİYASI

**İstiqamətin şifri və adı: İİM – 060401 Dünya iqtisadiyyatı**

**İxtisaslaşma: Azərbaycanın xarici iqtisadi əlaqələri**

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Magistr proqramının rəhbəri:** |
| **i.e.d.,prof.R.T.Həsənov** | **i.e.n., dos. F.Ə. Rəhimli** |

**Kafedra müdiri: i.e.d., prof. Ş.H. Hacıyev**

**Bakı - 2017**

# MÜNDƏRİCAT

**GİRİŞ………………………………………………………...………………..3**

**FƏSİL I. XARİCİ I İNVESTİSİYALAR VƏ ONLARIN ÖLKƏNİN SOSİAL-İOTİSADİ İNKİŞAFINDA ROLU**

1.1. Xarici investisiyalar və investisiya layihələrinin iqtisadi mahiyyəti...........................................................................................**..6**
1.2.Xarici investisiyaların həyata keçirilməsinin səmərəliliyi..........................................................................................13

**FƏSİL II. AZƏRBAYCANIN NEFT STRATEGİYASI : FORMALAŞMASI VƏ YENİ MƏRHƏLƏDƏ İNKİŞAFI**

2.1. "Əsrin müqaviləsi" və ölkədə ilkin xarici investisiya portfelinin yaradılması..........................................................................................29
2.2. Azərbaycanın neft-qaz ixrac boru kəmərləri və dünya bazarına eneryidaşıyıcıların çıxarılması strategiyası...........................................................................................36

**FƏSİL III. AZƏRBAYCANIN MİLLİ İNKİŞAF STRATEGİYASINDA ENERJİ STRATEGİYASININ VƏ XARİCİ İNVESTİSİYALARIN ARTAN ROLU**

3.1. Ölkənin neft sənayesinin iqtisadi inkişafının idarə edilməsi strategiyası..........................................................................................**.40**
3.2. Azərbaycanın yeni transregional qaz layihələri və onların milli inkişaf strategiyasında rolu....................................................46

3.3. Dünya Bankının Azərbaycanda həyata keçirdiyi investisiya strategiyası...........................................................................................56

**NƏTİCƏ…………………………………………………………….........69**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT…………………………......................72**

# GİRİŞ

**Mövzunun aktuallığı.** XX əsrin sonlarında Ümumilli liderimiz cənab Heydər Əliyev tərəfindən işlənib hazırlanan və hazırda Azərbaycan Respublikasının Prezidenti olan cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilmiş "Yeni neft strategiyası" Azərbaycanın qədim neft-qaz ölkəsi kimi şöhrətini özünə qaytararaq, dövlətimizin innovativ, davamlı iqtisadi inkişafına təkan verdi. Azərbaycanın dinamik inkişaf edən, güclü iqtisadiyyata və nüfuzlu ölkəyə çevrilməsində müstəsna rol oynayan bu strateji kurs müstəqilliyin möhkəmləndirilməsinə, iqtisadi-siyasi qüdrətinin və beynəlxalq birliyə inteqrasiyasının və əhalinin daim yüksələn sosial rifahının təminatıdır.

Azərbaycanın neft strategiyasının yeni mərhələdə inkişafı ölkəyə xarici investisiyaların cəlb olunmasında, milli inkişaf strayegiyasının reallaşmasında aparıcı rol oynayır. Son illər ərzində istehsal infrastrukturuna yatırılan investisiya, tanınmış beynəlxalq neft şirkətləri ilə səmərəli əməkdaşlıq, yeni neft-qaz ixrac marşrutlarının yaradılması və yeni bazarlara çıxış əldə olunması nəticəsində ölkəmiz öz milli strateji inkişafında yeni mərhələyə qədəm qoymuş və artıq xaricdə investisiya layihələrinin reallaşdırılmasını müvəffəqiyyətlə idarə edir.

Ölkənin artan enerji potensialının gerçəkləşdirilməsi istiqamətində diversifikasiya və çoxvariantlılıq prinsiplərə əsaslanaraq ölkəmiz yeni transregional layihələri həyata keçirir, ölkəyə yeni xarici investisiya axımına şərait yaradır. Yalnız 2016-cı ildə Azərbaycan iqtisadiyyatına 8 mlrd. dollarlıq xarici investisiyalar cəlb olunub.

Bütün bunlar göstərir ki, magistr dissertasiyasının "Neft strategiyası və xarici investisiyaların milli inkişaf strategiyasında rolu" mövzusu günün prioritet məsələlərindən birinə həsr olduğu üçün **aktualdır.**

**Tədqiqatın məqsədi** ondan ibarətdir ki, Azərbaycanın milli inkişaf strategiyasında ölkəmizin yeni mərhələdə neft siyasətinin uğurla inkişafını, ölkəyə əlavə xarici investisiyalarının cəlb edilməsini təhlil etməklə bu amillərin

ölkənin mövqeyinin güclənməsində  artan rolunu ğöstərməklə müəyyən praktiki təkliflər verməkdən ibarətdir.

Bu məqsədə çatmaq niyyəti ilə dissertasiyada aşağıdakı vəzifələr qarşıya qoyulmuş və baxılmışdır:

- Xarici investisiyalar və onların ölkənin sosial-iqtisadi inkişafında rolu araşdırılmışdır;
- Neft strategiyasının reallaşdırılması əsasında ölkədə xarici investisiya portfelinin yaradılması göstərilmişdir;
- Azərbaycanın neft sənayesi iqtisadiyatının inkişafının idarə edilməsi strategiyası tədqiq olunmuşdur;
- Azərbaycanın yeni transregional layihələri və onların milli inkişaf strategiyasında rolu və əhəmiyyəti təhlil olunmuşdur.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın obyekti ölkənin milli inkişaf strategiyası və onu formalaşdıran amillər, predmetini isə strategiyanın inkişafında Azərbaycanın yeni neft strategiyasının, bunun əsasında ölkəyə əlavə xarici investisiyaların yatırılmasının rolu və əhəmiyyətini ğöstərməsi  təşkil edir.

Dissertasiya işi  girişdən, üç fəsildən, nəticədəm və istifadə olunmuş ədəbiyatdan ibarətdir.

Girişdə dissertasiya işi mövzusunun ümumi aktualığı, vəzifələri, obyekti və predmeti, informasiyanın mənbəyi, tədqiqat elminin yeniliyi və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiya işinin **birinci fəslində** xarici investisiyalar və investisiya layihələrinin iqtisadi mahiyyəti, xarici investisiyaların həyata keçirilməsinin səmərəliliyi geniş təhlil olunur.

İşin **ikinci fəslində** Azərbaycanın neft strategiyasının formalaşması və yeni mərhələdə inkişafı, ölkədə ilkin xarici investisiya portfelinin yaradılması, investisiya layihələrində ölkəmizin iştirakı məsələləri tədqiq olunur.

Dissertasiya işinin **üçüncü fəslində** Azərbaycanın neft sənayesi iqtisadiyatının inkişafının idarə edilməsi strategiyası, ölkəmizin yeni

transregional əhəmiyətli qaz layihələri və onların milli inkişafında rolları tədqiq olunaraq yoxlanılıb.

**Tədqiqat informasiya bazasını** Azərbaycan Dövlət Statsitika Komitəsindən, İqtisadiyyat Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Dünya Bankının illik hesabatlarından, monoqrafiyadan , jurnallardan və "internet" şəbəkəsinin informasiya məlumatlarından ibarətdir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- Açıq iqtisadiyyat modelini tətbiq edən ölkələrin sosial-iqtisadi inkişafında xarici investisiyaların rolu, həyata keçirilməsinin səmərəliliyi geniş tədqiq edilmiş və müvafiq elmi ümumiləşdirmələr göstərilmişdir;
- Yeni neft strategiyasının reallaşdırılması əsasında ölkənin ilkin xarici investisiya portfelinin yaradılması və investisiya layihələrdə ölkəmizin iştirakı göstərilmişdir;
- Azərbaycanın milli inkişaf strategiyasında yeni transregional qaz layihələri ilə bağlı enerji strategiyanın və xarici investisiyaların artan rolu tədqiq olunmuşdur;

**Tədqiqatın praktik önəmi -** tədqiqatın nəticələri və göstərilən təkliflər Azərbaycanın milli inkişaf strategiyasında enerji strategiyasının və xarici investisiyaların rolunun artırılması ilə bağlı uyğun dövlət orqanlarında istifadə edilə bilər. Eyni zamanda tədris prosesində ali məktəblərdə "Beynəlxalq investisiyalar" və "Dünya iqtisadiyyatı" kursların tədris edilməsində dissertasiyanın materiallarından istifadə edilə bilər.

Dissertasiya işinin **metodoloji əsası** Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycanın neft strategiyasına uyğun olaraq imzalanmış rəsmi sənədlərdən, Azərbaycan Respublikası Prezidentinin sərəncamlarından, çıxışlarından, Dünya Bankının hesabatları və rəsmi sənədlərindən, yerli və xarici iqtisadçı-alimlərin əsərlərindən, Azərbaycan Dövlət Neft Şirkətinin, Dövlət Gömrük Komitəsinin və Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin hesabatlarından və məlumatlarından ibarətdir.

# FƏSİL I . XARİCİ İNVESTİSİYALAR VƏ ONLARIN ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA ROLU

## 1.1 Xarici investisiyalar və  investisiya layihələrinin iqtisadi mahiyyəti

Qloballaşan dünyada ayrıca götürülmüş hər hansı dövlətin iqtisadi inkişafının təmin edilməsində ən önəmli faktorlardan biri də xarici və daxili investisiyalardır. Xarici mənbələr hesabına yatırılan investisiyalara və onların həcminə ölkədəki biznes mühitinin əlverişliliyi, investorların hüquqlarının qanunvericilik əsasında nə dərəcədə qorunması,yatırılan investisiyaların mənfəət dərəcəsi, bilavasitə təsir göstərir.

Azərbaycanda Respublikasında həyata keçirdiyi “Yeni neft strategiyası” və hazırda qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində dövlətin reallaşdırğı tədbirlər nəticəsində maliyyə imkanları ilbəil genişlənir. Bütün bunlar dövlətin ölkəmizdə həyata keçirilən uğurludaxili və xarici investisiya siyasətininhəyata keçirilməsinə imkan yaratmaqdadır.

Azərbaycanın iri daxili və xarici investoru olan Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (ARDNŞ) müasir çoxşaxəli investisiya fəaliyyəti və strategiyası bilavasitə quruda və dənizdə neft-qaz hasilatı, beynəlxalq neft-qaz müqavilələrində, ixrac boru kəmərlərinin tikilişində iştirakı və ölkədaxili çoxşaxəli fəaliyyəti nəticəsində əldə olunan gəlirləri ilə investisiya portfeli formalaşmışdır.

Azərbaycan RespublikasıDövlət Neft Şirkəti ilə xarici investorlar arasında bağlanmış müqavilələr quruda və Xəzər dənizinin Respublikaya aid olan hissəsində neft və qaz kəşfiyyatı, çıxarılması və hasilatının pay bölgüsünə dair Sazişlərlə bağlı əldə olunan gəlirlər Dövlət Neft Fonduna (ARDNF) daxil olur.

**İnvestisiya** – gəlir (mənfəət) və ya sosial-iqtisadi fayda götürmək məqsədlə sahibkarlığa, infrastruktur təminatına və başqa fəaliyyət istiqamətlərinin obyektlərinə qoyulan maliyyə vəsaiti, həmçinin maddi və bilik

sərvətlərdir. Belə vəsait və sərvətlər puldan, banka qoyulmuş məqsədli əmanətlərindən, kreditlərdən, səhmlərdən və başqa qiymətli kağızlardan, daşınan və daşınmaz əmlakdan, uyğun şəkildə rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlərdən ibarətdir. İnvestisiya bir kapital olaraq, ölkə daxili və ya xarici obyektlərə qoyulması, dövlətlərin davamlı innovativ iqtisadi inkişafında müstəsna əhəmiyyət kəsb etməklə bərabər, dünya təsərrüfatının formalaşması və genişləndirilməsi üçün əsas amillərdəndir.[1]

İnvestisiya fəaliyyəti investor tərəfindən həyata keçirilir**. İnvestor** – (ingilis dilində – əmanətçi), investisiya layihəsini həyata keçirmək üçün təşkilatçı, təchizatçı və maliyyələşdirən tərəfdir. İnvestor rolunda dövlət, daxili və xarici hüquqi və fiziki şəxslər və ya bunların birgə qrup ola bilər. Hər bir investorun məqsədi sərf olunan investisiyadan əlavə gəlirinin əldə edilməsi olduğundan, bu fəaliyyətə başlamazdan əvvəl investisiyanın obyekti, təminatı, infrastrukturu, maliyyə xərcləri haqqında ətraflı məlumatlar əldə edib, araşdırır və ilkin olaraq (təxmini) gəliri müəyyənləşdirir.

İnvestisiya prosesində digər iştirakçılar da fəaliyət göstərirlər ki, bunlara sifarişçilər, iş icraçıları, investisiya fəaliyyətinin obyektlərindən istifadə edənlər və habelə mal göndərənlər, xarici hüquqi şəxslər (bank, sığorta və vasitəçi təşkilatlar, investisiya fondları) aiddir. Sifarişçi investorlar və habelə investisiya layihəsini reallaşdırmaq üçün investorlar tərəfindən vəkil edilmiş hər hansı bir fiziki şəxs eyni zamanda hüquqi şəxs ola bilərlər. Sifarişçi investor olmadığı hallarda müəyyən edilmiş müddətə və müqavilədə göstərilmiş səlahiyyət dairəsində o investisiyaya sahib olmaq,
istifadə etmək və sərəncam vermək huququna malik olur.

İnvestisiya fəaliyyəti bir neçə mərhələlər üzrə həyata keçirilir ki, bunlara – **laq** deyilir. (qrafik 1)

[1]Z.Səmədzadə. "Böyük iqtisadi ensiklopediya" B.,2012.

## İnvestisiya laqlarının mərhələləri

Qrafik 1.




**ilk laq** – investisiya proseslərinin təşkili, təchizi, işçi kollektivinin yaradılması və s. üçün investor tərəfindən kapital qoyuluşudur. Bu halda investisiya fəaliyyətindən heç bir gəlir götürülmür.

**orta laq** – fəaliyyət nəticəsində investisiya gəlirləri əldə edilir, lakin bu gəlirlər sərf edilən xərclərə bərabər olur.

**son laq** – investisiya gəliri əldə olunur.

**İnvestisiya fəaliyyəti** gəlir əldə etmək üçün investisiya qoyuluşu ilə başlanan bütün işlərinin məcmusudur. Bu fəaliyyət zamanı aşağıdakı prinsiplərə istinad edilir:

**qanunilik** – fəaliyyətin hüquqi bazasının olması;

**konüllülik** – fəaliyyət konüllüolduğundan onunla istənilən dövlət, yerli və xarici hüquqi və fiziki şəxs investor kimi məşğul ola bilər;

**bərabər hüquqluluq** – fəaliyyətin növündən və obyektlərindən asılı olmayaraq, bütün investisiya subyektlərinin hüquqları eynidir.

**investisiyanın qorunması** – dövlətin və müvafiq beynəlxalq təşkilatların qəbul etdikləri qanunlar və dövlət zəmanəti ilə investisya fəaliyyətini qorumaq.

İnvestisiya fəaliyyətində beynəlxalq aləmdə qəbul edilmiş terminlərdən istifadə olunur ki, bunlara da aşağıdakılar aiddir:

**Annunitet**- investisiya fəaliyyətindən gəlirlərin vaxtaşırı əldə edilməsidir.

**Selinq**- daimi investisiya fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə deyilir.

**Vençur** investisiyaları - riski az olan investisiya fəaliyyətidir.

**Vençur** kapitalı - vençur investisiya fəaliyyətinə qoyulan kapitaldır.

İnvestisiya fəaliyyətini həyata keçirmək üçün ölkədə investisiya mühiti yaradılmalıdır.

İnvestisiya fəaliyyətinə başlamaq üçün vacib olan və əvvəlcədən təminatı müəyənləşdirilən investisiya mühitinə aiddir: [1] (qrafik 2)

Qrafik 2

**İnvestisiya mühiti**




[1] А.Рыбалкин. Международные экономические отношения. М.2008.

- ölkədə siyasi və iqtisadi sabitliyin mövcudluğu;

- investisiya fəaliyətinin hüquqi təminatı;

- investisiya resurslarının mövcudluğu:

- investisiya maliyyəsi (ehtiyat, borc və ya xarici kapital).

- investisiya resurslarından istifadə bacarığı;

- investisiya gəlirlərinin ölkədən çıxarmaq hüququ;

- dövlət zəmanəti.

İnvestisiya mühitini qiymətləndirmək üçün Dünya Bankı tərəfindən üç reytinq qəbul edilmişdir: (qrafik 3)[1]

Qrafik 3

**Dünya Bankı tərəfindən İnvestisiya mühitinin qiymətləndirilməsi sistemi**




a) **investisiya reytinqi** hər bir ölkənin əsas makroiqtisadi göstəricisi kimi ÜDM və onun artım tempi; Ölkənin kredit qaytarma qabiliyyəti.

b) **avtonom reytinq** – ölkənin debitor və ya kreditor olması;

c) **beri reytinqi** – ölkədə sabitliyin olması və sahibkarlıq fəaliyətinin vəziyyəti.

İnvestisiya fəaliyyətində mənfəət investisiyasının maliyyələşdirilməsinin başlıca məqsədidir. Mənfəət – məhsulun satışından onun maya dəyərinin çixilması nəticəsində əldə olunan xalis gəlirdir. İnvestisiya fəaliyyətində iştirak

---

[1]R.Ə.Əliyeva. Beynəlxalq iqtisadi münasibətlər. (Dərs vəsaiti) Bakı 2012.

edən daxili və xarici hüquqi şəxslərdə mənfəəti müəssisənin kommersiya fəaliyyətinin nəticəsinin ümumiləşdirilmiş göstəriciləridir.

Müəssisədə əldə olunan mənfəətdən dövlət büdcəsinə vergi və başqa öhdəlikləri yerinə yetirdikdən sonra xalis mənfət əldə olunur. Onun da müəyyən bir faizini istehsala və sosial yönümlü kapitala yönəltmək olar. Mənfəətin qalan faizi investisya yığım fondu tərkibində və ya müəssisə daxilində qurulmuş başqa oxşar fondlar tərkibində istifadə edilir.

İnvestisiya fəaliyətinə başlamaq üçün maliyyə mənbələri müəyən olunmalıdır. İnvestisiya fəaliyyətinin maliyyə mənbələri daxili və xarici olmaqla iki qrupa bölünür (qrafik 4).

Daxili mənbələr bilavasitə əhalinin yığımları, müəssisənin xüsusi vəsaiti və mənfəəti, dövlət büdcəsi və büdcə fond vəsaitləri, bank sistemi kreditləri və s. aiddir. Xarici investisiya mənbələri xarici hüquqi və fiziki şəxslərin vəsaiti və kreditlərdir.

İnvestisiya qoyuluşlarının maliyyələşdirmə yollarından biri də xaricdən əldə olunan kreditlərdir. Xarici kreditlər bir neçə növdə əldə edilə bilər:

- investisiyaya qoyulan kreditlər;
- ixracat kreditləri;
- tədiyə balansının tarazlaşdırılması yolu ilə verlə bilən kreditlər.

**Qrafiq 4.**




**İnvestisiya kreditləri** yalnız investisiya qoyuluşlarının maliyyələşdirilməsi məqsədilə verilir. Bu investisiya kreditləri əsasən konkret layihələrə verilir və adətən uzunmüddətli olur. Xarici investisiya kreditlərini dövlət tərəfindən almaqla yanaşı hər hansı bir müəssisə, şirkət üçün zəmanət də verə bilər. Hər iki halda alınan kreditlər dövlətin xarici borclarına aid edilir. Lakin hər hansı xüsusi müəssisələr müstəqil olaraq (dövlət zəmanəti almamış) bu və ya digər ölkədən, banklardan, müəssisələrdən borc aldıqda bu borc dövlət borclarına aid edilmir.

İnvestisiya fəaliyyəti bir-birindən fərqlənən müxtəlif növlərə malikdir ki, bunlar obyektlərinə (real, portfel), fəaliyyətdə iştirakına (birbaşa, dolayı), müddətinə (qısa, orta, uzun), mülkiyyət münasibətinə (xüsusi, dövlət, qarışıq, xarici), müştərək, ərazisinə görə (daxili, xarici), gəlirik hesablanmasına görə (ümumi, xalis).

Bütün dünyada mövcud olan 200-dən artıq dövlətlər iqtisadi resurs təminatına, coğrafi yerləşməsinə, iqliminə, sosial-iqtisadi inkişafına əhalisinin sayına, milli xüsusiyyətlərinə və s. göstəricilərinə görə bir-birindən fərqlənirlər. Lakin bütün

dövlətlərdə olan əhalinin yaşamaq hüququ tələbləri demək olar ki, eynidir. Bu baxımdan dövlətlərin sosial-iqtisadi inkişafı tələblərinin ödənilməsi üçün onlar arasında qədim tarixi olan və geniş inkişaf etmiş beynəlxalq ticarət əlaqələri ilə bərabər xarici investisiyaların ölkələrə cəlb edilməsi olduqca zəruridir.

## 1.2. Xarici investisiyaların həyata keçirilməsinin səmərəliliyi

Hər bir investisiya fəaliyyəti, hərtərəfli araşdırmadan sonra, investisiya layihəsi tərtibi ilə başlayır. **İnvestisiya layihələri** – *investorun həyata keçirilməsi nəzərdə tutulan investisiya fəaliyyətinin əyani şərhidir.*İnvestisiya layihələri olduqca müxtəlif olub, bir neçə qruplara və növlərə bölünürlər ki, onlardan aşağıdakıları göstərmək olar:

- daxili ;
- xarici;
- elm tutumlu

***Daxili investisiya layihələri:***obyektləri ölkə daxilində olur. Məsələn, kütləvi yaşayış və digər sahələrdə tikinti, infrastruktur, sənaye, kənd təsərrüfatının və digəa sahələr üzrə investisiya layihələri.

***Xarici investisiya layihələri*** - başqa bir dövlətin ərazisində yerləşən obyektlərə yatırılması üçün tərtib edilir. Məsələn, ARDNŞ Gürcüstan, Türkiyədə, Ukraynada, Moldovada və s. dövlətlərdə investisiya layihələri üzrə fəaliyyəti.

***Elm tutumlu*** – yeni texnika və texnologiya, bütün sahələrdə innovasiya, dünya bazarında ölkələrin movqeyinin möhkəmləndirilməsi üzrə investisiya layihələri.

***İnvestisiya layihələrinin növləri:***

- Istehsal-texniki;
- Tikinti (xarici tikintiyə investisiya);
- Ticarət (daxili və xarici);
- Keyfiyyətin yaxşılaşdırılması;
- Su təminatı;

- Infrastruktur (nəqliyyat, istehsal, sosial, bazar);
- Təşkilati (struktur);
- Beynəlxalq neft-qaz istehsalına investisiya layihələri;
- Beynəlxalq neft-qaz marşrutuna investisiya layihələri.

Istehsal-texniki investisiya layihələri yeni texnika və texnologiyanın istehsalata tətbiqi ilə əmək məhsuldarlığının artırılması üçün tərtib edilmiş layihələrdir ki, burada məqsəd daha çox məhsul istehsalıdır.

Tikinti-investisiya layihələri – dövlətin, hüquqi və fiziki şəxslərin, həmçinin xarici kapital hesabına tikinti işlərinin yerinə yetirilməsi üçün tərtib edilir. Tikinti investisiya layihələri yaşayış evlərinin, müəssisə və təşkilatların tikintisi üçün tərtib edilir və reallaşır. Tikinti - investisiya layihələrinin xarici ölkələrdə də həyata keçirilməsi nəzərdə tutulur.

Ticarət investisiya layihələri geniş yayılan layihələrdir. Ticarətdən alınan investisiya gəlirləri tez əldə olunsa da riskli fəaliyyətdir. Ticarət investisiya layihələri çox şaxəli olmaqla bərabər onların daxili və xarici kimi növləri mövcuddur.

Keyfiyyətin yaxşılaşdırılması üzrə investisiya layihələri innovasiyalı istehsal və xidməti əhatə edərək rəqabətqabiliyyətli əmtəə istehsalı və xidmət üçün çox əhəmiyyətlidir. Bu layihələr qloballaşma şəraitində dünya bazarında əmtəə realizasiyasının əsas şərtidir.

Su təminatı investisiya layihələri əhalinin və bütün istehsal sahələrinin, xidmətin həyata keçirilməsinin əsas şərtlərindəndir. Su təminatı xüsusən kənd təsərrüfatı məhsul istehsalı və emalının, ərzaq təhlükəsizliyinin əsasdır;

**İnfrastruktur investisiya layihələri** – bütün sahələrin inkişafına və innovasiyaların tətbiq etdirilməsinə xidmət üçün tərtib edilir.

İnfrastruktur layihələrin bir neçə növləri mövcuddur:[1]

*a) yol infrastruktur* layihələri – bilavasitə yolların, körpülərin təmiri və dünya standartlarına uyğun yenidən tikilməsi üçün həyata keçirilir. Nəqliyyat

---

[1]R.Əliyeva. Beynəlxalq iqtisadi münasibətlər.B.2012

infrastrukturu reallaşması əhali və nəqliyyatın hərəkəti və bütün sahələrininkişafının vacib şərtidir. Əksərər yol infrastruktur layihəsi dövlət tərəfindən maliyyələşdirilir.

*b) Sosial-infrastruktur* layihələri - əhalinin sosial tələblərinin təmin edilməsinə xidmət etmək üçün həyata keçirilir. Uşaq bağçaları, məktəb, ali təhsil ocaqları, iaşə müəssisələri, mədəniyyət, səhiyə, incəsənət, turizm və s. inkişaf etdirilməsi üçün tərtib edilir və hər bir insanın yaşayışı, hərtərəfli inkişaf etməsi, intellektual səviyəsinin formalaşmasına xidmət edir. Hər bir dövlətin sosial-iqtisadi inkişafında əsas məqsəd ölkənin qüdrətini möhkəmləndirmək və əhalinin maddi rifah halını yaxşılaşdırmaq olduğundan, bu investisiya layihələri mühüm əhəmiyət kəsb edirlər.

*c) Istehsal infrastruktur layihələri* –İstehsal infrastruktur layihələri istehsal prosesində iştirak etməyib, onun həyata keçirilməsinə xidmət edən sahələri əhatə edir. Yəni istehsal fəaliyyətinin davamlılığı və nəzərdə tutulmuş qaydada həyata keçirilməsi üçün nəqliyyatın, su, elektrik, informasiya - kommunikasiya texnologiyasının və s. aramsız və yüksək səviyyədə təminatı istehsal infrastruktur layihələrinin təminatı ilə nail olunur.Belə layihələr dövlət və özəl sektor tərəfindən və ya xarici investor tərəfindən maliyələşdirilir. İstehsal investisiya infrastrukturlarının reallaşdırılmasında məqsəd tez bir vaxtda gəlir götürmək deyil, son məhsulun satışından əldəolunangəlirləbərabərölkəninsosial-iqtisadi inkişafına nail olmaqdır. Digər tərəfdən xarici investisiyaları ölkəyə cəlb etmək üçün müvafiq yollar, yaşayış üçün hərtərəfli təminat (daimi su, elektrik, iaişə xidməti və s.) olmalıdıfr. Müasir infrastruktur təminatı ilə xarici investorların neftdən əlavə qeyri-neft sektoruna, o cümlədən mərkəzlə bərabər regionlara da investisiya qoymasına maraq yaratmaq olar.

Dövlətlər arasında iqtisadi münasibətlərin genişləndiyi mövcud inteqrasiya proseslərində istehsal infrastrukturunun inkişafı olduqca zəruridir

*d)* Təşkilati struktur investisiya layihələri – mövcud elmi-texniki tərəqqinin sürətlə inkişaf etməsi ilə bazara yeni-yeni tələbata uyğun əmtəələr

çıxarılır və xidmətlər göstərilir. Mövcud qloballaşma, inteqrasiya və iqtisadi sistemin transformasiyası, innovasiyanın tətbiqi proseslərinin genişlənməsi, yeni müəssisə, təşkilat və nazirliklərin yaradılmasını zəruri edir. Bütün bunlar dövlət tərəfindən təşkilati (struktur) dəyişikliklərin aparılması ilə bağlı layihələrin tərtib edilməsi və reallaşmasını tələb edir. Məsələn: Azərbaycanda müstəqilliyi əldə edilməsi və bazar iqtisadiyyatına keçidlə əlaqədar yeni nazirliklər (İqtisadi İnkişaf və Sənaye, İncəsənət və Turizm, Gənclər və idman, Hərbi və s.) və təşkilatlar (Dövlət İnvestisiya Şirkəti), ("Aqrolizinq") Səhmdar Cəmiyyətlər yaradılmışdır.

**Beynəlxalq neft-qaz investisiya layihələri.**

Bütün dövlətlərdə, istənilən sahədə və əhalinin yaşayışının təminatında neft-qaz resurslarının emalı məhsullarından geniş istifadə olunur. Lakin bu təbii sərvətlər bütün dövlətlərdə olmadığından, onlarla təminat bəzi dövlətlər üçün daimi problem məsələ olmaqdadır. Xarici investisiyanın neft-qaz sahəsinə cəlb edilməsi investisiya layihələrinin reallaşması üzv dövlətlər üçün olduqca səmərəli olmaqla bərabər, həm də onlar arasında birgə əməkdaşlığa və dostluğa səbəb olur. Bu investisiya layihələrindən əldə olunan gəlirlər ölkənin neft-qaz sahələrinin inkişaf etdirilməsi ilə bərabər qeyri-neft sektorunun inkişafı ilə bərabər əhalinin sosial təminatı üçün olduqca zəruridir.

**Beynəlxalq neft–qaz ixrac boru marşrutları investisiya layihələri.**

Dövlətlər arasında enerji təhlükəsizliyinin aradan qaldırılması üçün neft və qazın ixracı boru marşrutlarının çəkilməsinə aid investisiya layihələri bütün dünyada xüsusən XX-XXI əsrin ən aktual və enerji təhlükəsizliyinin aradan qaldırrılmasının problem məsələlərindəndir. Belə marşrut investisiya layihələrinin reallaşması idxalatçı ölkələrdə enerji təhlükəsini aradan qaldırmaqla bərabər, üzv dövlətləri arasında dostluq və birgə əməkdaşlığa əsas verir. Belə ixrac neft-qaz boru marşrutları layihələrindən Bakı-Novorossiysk, Bakı-Tbilisi-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum,TANAP, TAP və s. göstərmək olar.

**Xarici investisya fəaliyyətinin subyektləri.** Dünya təcrübəsi göstərir ki, hər bir dövlətin iqtisadi imkanlarının təmin edilməsində əsas faktorlardan biri daxili investisya ilə bərabər xarici investisiyalardır. Hər bir xarici investorun məqsədi investisya gəlirinin əldə edilməsi olduğundan fəaliyyətə bağlanmazdan əvvəl ölkə və onun iqtisadi inkişafı, investisya mühiti nəqliyyat xərcləri və s. haqqında ətraflı, məlumatlar, əldə edib, araşdırır və ilkin olaraq təxmini investisiya gəliri müəyənləşdirir. Yalnız bu və qarşılana biləcək digər faktorlar (fors –major hadisələri istisna olmaqla) hərtərəfli öyrənildikdən və bağlanılacaq investisiya kontraktının bütün müddüaları ilə tanış olub, onu qəbul etdikdən (imzaladıqdan) sonra xarici investor investisiya fəaliyyətinə başlaya bilər.

İnvestisiya fəaliyyətinin subyektləri xarici fiziki və hüquqi şəxslər, habelə dövlət və beynəlxalq maliyyə təşkilatları ola bilər. İnvestorlar investisiya vəsaitinin formasında xüsusi (ehtiyat kapitalı), borc alınmış və cəlb edilmiş kimi olduğundan onların məqsədli istifadəsini təmin edirlər.

**Xarici investisiyalar** olkə iqtisadiyyatına, o cümlədən sənayeyə, kənd təsərrüfatına, nəqliyyata və s. sahələrə xarici investorların (sərmayədarların) qoydugu uzunmüddətli kapitaldır.

Xarici investisiyalar üç qrupa bölünürlər:

- Müstəqim
- Birbaşa
- Portfel

**Müstəqim xarici investisiyalar** maddi və digər dəyərlərin (qiymətlilərin) istehsalına sahibkarlıq kapitalı qoyuluşlarıdir. Onlar xarici şirkətlərin və birgə müəssisələrin filiallarının və şöbələrinin yaradılmasına, fəaliyyətdə olan müəssisələrin əldə edilməsinə, nəzarət səhm paketinin və ya nəzarət hüququ verən majoritar iştirakların əldə edilməsi yolu ilə yerli şirkət üzərində nəzarətin müəyyən edilməsinə, manfəətin reinvestisiyası hesabına filiallarının mənfəətinin genişlənməsinə qoyulur.

**Birbaşa investisiyalar** üzrə investorun nəzarəti olur. Məsələn, “Əsrin münasiləsi”nə investsiya qoyuluşu birbaşadır.

**Portfel investisiyaları** vəsaitlərin, səhmlərin və nəzarət hüququ olmayan minoritar iştirak kimi digər yerli qiymətli kagizların alinmasına, borcların (istiqrazların) və kreditlərin xarici hüquqi şəxslərə təqdim edilməsinə yonəldilən investisiya qoyuluşlarıdir.

Xarici və daxili investisiya ilə aparılan fəaliyyətə başlamaq üçün investor onun əsas komponenləri və riskləri haqqında ətraflı məlumatlar əldə etməlidir. İnvestisiya komponentlərinə aiddir:

- ✓ Investisiya layihəsi;
- ✓ Investor;
- ✓ Investisiya ərazisi;
- ✓ Investisiya informasiyası;
- ✓ Investisiya effekti;
- ✓ Investisiya resursları;
- ✓ Investisiya mənbələri;
- ✓ Investisiya aktivləri;
- ✓ Investisiya mədəniyyəti.

**İnvesttsiya fəaliyyətinin komponentləri**

**Qrafik 5**



- *investisiya layihəsi* Investisiya fəaliyyətinin əsas komponentidir. Ölkənin sosial-iqtisadi inkişafı üçün dövlət və xüsusi investisiyaların kapital qoyuluşundakı məqsədi ilə investisiya layihələri tərtib edilir. İnvestisiya layihələri daxili və ya xarici investorların razılaşması ilə birgə həyata keçirilə bilər.
- *İnvestor* investisiya layihəsini həyata keçirmək üçün maliyyələşdirən tərəfdir. İnvestor daxili, xarici və ya bunların birgə fəaliyyəti ola bilər.
- *Infestisiya ərazisi*- investisiya fəaliyyəti üçün ayrılan sahədir.
- *Investisiya informasiyası* – bu fəaliyyəti reallaşdırmaq üçün istifadə olunan nəzəri, təcrübi, elmi və statistik məlumatların informasiya kommunikasiya texnologiyası və digər vasitələrlə əldə edilməsidir.
- *Investisiya effekti* – investor əvvəlcədən fəaliyyətin səmərəliliyi və əldə olunacaq gəlir haqqında təxmini məlumatı olmalıdır.
- *Investisiya resursları* - investisiya layihəsinin həyata keçirilməsi üçün sərf olunacaq resursların məbləği müəyyən edildikdən sonra onların əldə edilmə mənbələri və imkanları əvvəlcədən aydın olmalıdır.
- *Investisiya mənbələri* – investisiya layihələrinin həyata keçirilməsinin maliyyə mənbələri əvvəlcədən müəyyənləşdirilməlidir. Bu fiziki və hüquqi şəxslərin ehtiyat kapitalı, borc kapitalı (daxili kredit), dövlət vəsaiti və ya bunların xarici növləri ola bilər.
- *Investisiya aktivləri;*
- *Investisiya mədəniyyəti* – investisiya layihələrini yerinə yetirmək üçün bir neçə daxili və xarici partnyonlarla müqavilələr bağlanır və biznes-planlar tərtib edilir. Bütün bunların səliqəli, düzgün və sadə tərtibi, razılaşdırılmış vaxtlarda əməl edilməsi investisiya mədəniyyətini göstərir.

İnvestisiya fəaliyyəti riskli fəaliyyətdir. İnvestisiya riskinin bir neçə növü mövcuddur.

- İstehsal; Maliyyə; Bazar; Siyasi; Informasiya.

- *İstehsal riski* - istehsalata qoyulmuş investisiya fəaliyyəti zamanı bir çox subyektlərlə müqavilələr bağlanır. Bu müqavilələrin razılaşdırılmış vaxtda yerinə yetirilməməsi, gecikməsi və ya pozulması fəaliyətin yerinə yetirilməməsinə səbəb olur ki, bu da nəticədə sərf olunmuş vəsaitdən nəzərdə tutulan gəlirin əldə edilməməsi riskini yaradır.
- *Maliyyə riski* – investisiya fəaliyyəti dövlət, hüquqi və fiziki şəxslərin ehtiyat və borc kapital hesabına və ya xarici kapital hesabına maliyyələşir. Nəzərdə tutulan maliyyə mənbələrindən investisiya fəaliyyəti üçün vəsaitin nəzərdə tutulan vaxtda çatdırılmaması fəaliyyətin baş tutmaması və maliyyə riskinin yaranmasına səbəb ola bilər.
- *Bazar riski* – investisiya fəaliyyəti nəticəsində istehsal olunan əmtəəyə və ya görülən xidmətə bazarda tələb olmadıqda və ya rəqabətqabiliyyətliliyi aşağı olduqda, onların realizə olunmaması və çəkilən xərclər müqabilində heç bir gəlirin əldə edilməməsi ilə bazar riski yaranır;
- *Siyasi risk* –ölkədə siyasi vəziyyətin dəyişməsi, hakimiyyət çevrilişi, sosial gərginlik və s. investisiya fəaliyyətinin yerinə yetirilməməsinə və ya heç bir gəlirin əldə edilməməsinə səbəb olur.

*nformasiya riski* – investisiya fəaliyyətinə başlamaq üçün əldə edilən bütün informasiyalarda səhvlərin və çatışmamazlığın olması nəzərdə tutulan istehsal və xidmətin yerinə yetirilməməsi ilə nəticələnir.

Dünya iqtisadiyyatının qloballaşdigi miüasir şəraitdə olkələr arasında xarici investisiyaların cəlb edilməsi sahəsində kəskin rəqabət davam edir. Bu məqsədlə investorlar üçün əlverişli investisya mühiti yaradılır. Onların cəlb edilməsi zamanı hər bir olkədə investisiyalaşmanın ümumiqtisadi şərtlərini və iqtisadi inkişafın sabitliyini, təsərrüfat qanunvericiliyini, sosial-iqtisadi vəziyyəti və s. xarakterizə edən gostəricilərdən istifadə olunur. Xarici investisiya şirkətləri göstəricilərhaqqındamövcudqanunvericiliyin mövcudluğuna təhlilinəinvestisiyadan əldə olunan mənfəətin köcürülməsinə, valyuta rejiminə, vergi sisteminə xüsusi diqqət yetirirlər. Kapitalı idxal edən olkələr xarici inves-

tisiyaların cəlb edilməsi proqramlarını işləyib hazirlayirlar. Xarici investisiyaların onu qəbul edən olkənin iqtisadiyyatına həm **müsbət**, həm də **mənfi** təsir etməsini nəzərə almaq lazımdır.

**Müsbət effektlər** sirasına kapital qoyulusunun həcminin artması, iqtisadi inkisafın sürətlənməsi, vəsaitlərin axini hesabına tədiyyə balansının vəziyyətinin yaxşılaşması, qabaqcıl texnologiyaların, təskilati və idarəetmə təcrübəsinin və s. istifadə edilməsi aiddir.

**Mənfi effektlərə** xarici investisiyalardan alınan mənfəətin öz ölkələrinə köçürülməsi və bununla da valyuta axını tədiyyə balansının vəziyyətinin pisləşməsi və s. aiddir.

Xarici investisiyanın əsas **obyektləri** bunlardır:

- müştərək müəssisələr (100%-li, tam ortaqlı, qarışıq ortaqlı xarici investisiyalı müəssisə və təşkilatlar);
- istehsal və xidmət prosesləri sahəsi;
- xalq təsərrüfatının ayrı-ayrı sahələri və sahə daxili müxtəliflikləri;
- xalq təsərrüfatının bütün sahələrində yeri yaradılan və modernləşdirilən əsas və dövriyyə fondları;
- qiymətli kağızlar (səhmlər, istiqrazlar, lotoreyalar və s.)
- məqsədli pul əmanətləri;
- əmlak hüququ və intellektual mülkiyyət hüquqları.

İstər daxili istərsədə xarici investisiya fəaliyyətində əsas amil maliyyə mənbəyinin düzgün müəyyənləşdirilməsidir.

Xarici investisiyanın **maliyyə mənbələrinə** aşağıdakılar aiddır:

- xarici dövlət kapitalı;
- beynəlxalq maliyyə təşkilatlarından alınmış kreditlər;
- xarici hüquqi və fiziki şəxslərin ehtiyat və borc kapitalı;
- səhmdar cəmiyyələrdən gələn dividentlər;

- icarə kontraktları (reytinq, xayrinq və lizinq) üzrə icarəyə verilmiş nəqliyyat vasitələrindən, əmtəə və mülklərindən və ya göstərilən xidmətlərdən əldə olunan vəsaitlər;
- investitorların önəmli maliyyə resursları və təsərrüfatın daxili ehtiyyatları (mənfəət, köhnəlmə ayırmaları, yerli və xarici vətəndaşların və hüquqi önəm daşıyan şəxslərin xüsusi hesabları və yığımları, təbii fəlakətdən itkilərin ödənilməsindəə sığorta orqanları tərəfindən ödənilən məbləğlər və s.);
- investitorun borcları (bank və büdcəyə aid vəsaitləri, istiqraz vərəqələri və s.);
- investorun cəlb edilmiş maliyyə vəsaitləri (səhmlərin satılişa qoyulmasından götürülmüş vəsait, əmək fondları üzvlərinin, yerli və xarici vətəndaşlarn, fiziki şəxslərin payları və digər haqqları);
- gösterilmiş şəkildə müəssisələrin və təşkilatların (ittifaqlar) cəmləşdirilmiş pul hesabları;
- dövlət və yerli  büdcələrdən həmçinin büdcədənkənar fondların investisiya təsisatları.

Ümumilikdə xarici kapital qoyuluşunun digər dövlətlərin vəsaiti, şirkətlərin və birliklərin xüsusi vəsaitləri sayəsində yerinə yetirilir. Digər dövlət vəsaitlərinə büdcə təsisatlarından, müəssisə və təşkilatların xüsusi vəsaitlərinə isə - köhnəlmə ayırmalarından, mənfəət və təsərrüfat üsuluyla görülən tikintinin qiymətinin aşağı endirilməsindən əldə olunan qənaətdən və s. ibarətdir.

Yerli olmayan müəssisələrdə investisiyanın maliyyələşdirilməsində amotizasiya ayırmalarından geniş istifadə olunur. Müəssisədə dəyərcə amortazasiya yığımı daimi (hər ay) heyata keçirilir. Amma önəmli istehsalın fontları hamısı bir-bir yenidən istehsal tsikilindən sonra təbii şəkildə ödənilməsini istəmir. Yekunda azad dövr edən pul vəsaiti yaranır (köhnəlmə ayırmalarını istehsalın xərclərinə əlavə etməklə) və bələ müəssisyə aid əsas kapitalın yenidən istehsalının şaxələndirilməsinə istiqamətləndirilə bilər.

Bundan başqa bütün illərdə yeni müəssisələr istifadəyə verilir ki, bunlarda öz növbəsində müəyyən olunmuş normativ üzrə (balansın dəyərindən %-lə) amartizasiya ayırmaları diqqətlə hesablanır. Amma belə müəssisələr normativ istismar müddəti bitənədək ödəmə istəmir.

Əmtəə istehsalçılarnın rəqabəti nəticəsində əhəmiyyətli olan əsas fondların yenilənməsinin əhəmiyyəti müəssisələrə tələb edir ki, onlar növbəti investisiyaya qoyuluşu üçün yığım yaratmaq niyyəti ilə avadanlığın tez bir zamanda ləğv edilməsi təşkil etsinlər. İnvestisiyalarınnın iqtisadi baxımdan sitimullaşdırılması kimi sürətli köhnəlmə zamanını süni azaldılması və ona uyğun olaraq köhnəlmə normativinin artırılmasıyla həyata keçirilir.

Ümumiyyətlə, investisiya qoyuluşuna vəsaitlərin istiqamətləndirilməsinin 2 önəmli yolla aparılır:

- geriyə verilmədən maliyyələşdirmə;
- uzunmüddətəi kreditləşməylə maliyələşdirmə

Geri qaytarılmadan maliyyələşdirmə yol, sosial infrastruktur obyektləri, xərclərin ödəmə müddəti 5 ildən çox olan təzə obyektlərin tikintisi, təhlükəli və ya nisbətən aşağı rentabelli müəssisələrin inkişaf etdirilməsi və yenidən qurulması və s. aid olubdövlət büdcəsi təsisatı hesabına aparılır.

Yerdə qalan kapital qoyuluşlarının maliyələşdirilməsində isə xüsusi vəsaitlərdən və uzunmüddətli kreditdən istifadə edilir.

Müasir şəraitdə investisiya qoyuluşunun maliyyələşdirilməsində xarici kreditin rolu az deyildir. İstehsal təyinatlı obyektlərin tikilməsi zamanı müəssisələrin şəxsi vəsaitləri çatmırsa belə niyyət üçün yerli və xarici kreditdən istifadə edilir. Tikinti istehsalının inkişafetdirilməsində və onun iqtisadi səmərəliliyinin yüksəldilməsində bank kreditinin əhəmyyəti yüksəkdir. İndi bankların krediti tikintidə əsas fondların yenidən istehsalının önəmli yollarından biri olmuşdur.

Müasir mərhələdə investisiyanın uzunmüddətli xarici kreditləşdirilməsi geniş tətbiq olunur. Bu onunla izah edilir ki, əsas vəsait qoyuluşu üçün xərclərin kredit üsulu ilə ödənilməsi tikinti təşkilatlarının əsas fondlarından və xüsusi

vəsaitlərdən daha yaxşı istifadəyə, avadanlıqların modernləşdirilməsinə, yeni texnikanın tətbiqi və texniki müddətlərinin qısaldılmasına səbəb olur. Xüsusi vəsaitlər çatışmadıqda fəaliyyətdə olan tikinti təşkilatlarının, yenidən qurulması və genişləndirilməsi xərcləri, yeni texnikanın tətbiqi və texnoloji proseslərin texniki təkmilləşdirilməsi xərcləri uzunmüddətli kreditlər hesabına aparılır.

Xarici investisiyanın ayrı-ayrı dövlətlərə cəlb edilməsi olduqca zəruridir.Xarici investor əldə etdiyi investisiya gəlirinin bir hissəsini öz ölkələrinə aparması, bəzən milli adət ənənəyə tabe olmaması kimi hallar olsa da, onlar özləri ilə ölkəyə kapital, yeni texnika, texnologiya gətirməklə fəaliyət göstərir, yeni müəssisələr yaradır, yerli əhali nümayəndələri işlə təmin olunur, xeyriyyə işləri yerinə yetirilir və bütün bunlar ölkənin sosial-iqtisadi inkişafı üçün olduqca əhəmiyyətlidir. Məhz buna görə,ölkə iqtisadiyyatına xarici investisiyanın cəlb olunması dünya kapital bazarında investisiya resursları üçün kəskin rəqabət şəraitində gedir.

Azərbaycan rəqabət mübarizəsində müvəffəqiyyətə nail olmaq üçün xarici kapitala açıq ölkə modelinin yaradılması və möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirməkdədir.Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev "Əsrin müqaviləsi"nin 20 illiyi üçün hazırlanmış tədbirdə belə demişdir: **"Hazırki Azərbaycan müasirləşmiş ölkədir, dözumlü iqtisadiyata sahib dövlətdir, sabit respublikadir, investisiyalara göre çox müsbət dövlətdir. Digər ölkələrin tərəfdaşları ilə ölkəmizin münasibəti inkişaf edərək davam edir və bu, çox qürurverici haldır. Biz verdiyimiz sözlərə daim sadiq olmuşuq, sözümüz ilə əməlimiz arasında heç vaxt heç bir ziddiyət olmamışdır. Buna görə dövlətimiz dünyanın etibarlı tərəfdaşı və dost ölkəsi kimi tanınır."**[1]

Azərbaycan Respublikasında **i**nvestisiya fəaliyyətinin hüquqi bazasının yaradılması üçün **"Xarici investisiyanın qorunması haqında" (1992-ci il), «İnvesitisiya fəaliyəti haqqında»** (1995-ci il) və **«İnvesitisiya fondları haqqında»** (1999-cu il) qanunlar qəbul edilmişdir.

[1]İlham Əliyevin "Əsrin müqaviləsi"nin 20 illiyi mərasimindəki çıxışından (20 sentyabr 2014-cü il).

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin **“İnvesitisiya fəaliyətinin genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqında”** 2006-ci il martin 30-u tarixli sərəncamına əsasən yaradılan “Azərbaycanın investisiya şirkəti”ASC həm ölkənin, həm də özəl şirkətlərin hissədarı kimi göstərərək dövlətin investisya fəaliyyətinin şaxələndirilməsində önəmli rol təşkil edir. Bütün bunların nəticəsidir ki, 2008-ci ildə ilk dəfə olaraq Azərbaycan iqtisadiyyatına yatırılan daxili investisiyalar xarici investisyaları üstələmiş və ölkənin valyuta ehtiyatlarının çoxalması ilə daxili və xarici investisiyaların həmçinin artırılması üçün əlverişli şərait yaratmışdır.

1997-ci ildə Azərbaycan Respublikasının **«Dövlət sektoruna investisiya qoyuluşunun orta müddətli proqramı»nın (1998-2000-ci illər)** qəbul edilməsi ilə xarici investisiyaların qorunmasına dair dövlət təminatının verilməsi, qanunla tənzimlənən xarici investorların fəaliyyətinə tam təminatın verilməsi, infrastrukturun müasir tələblərə cavab verməsi və digər məsələlər üzrə müvafiq işlər yerinə yetirilmişdir.

Ümumimilli lider Heydər Əliyevin uzaqgörən iqtisadi siyasəti, idarəçilik təcrübəsi və gərgin əməyi nəticəsində “Əsrin müqaviləsi”nin bağlanması ilə ölkəyə xariciinvestisiyaqoyuluşubaşlamışdır.AzərbaycanRespublikasınıniqtisadiyyatına yönəldilmiş investisiyaların tərkibində xarici investisiyalar 2008-ci ilin ortalarına qədər daxili investisiyadan çox idi. Bu da xarici investisiyadan asıllığı yaradırdı, lakin «yeni neft strategiyasının» reallaşması ilə hasil olunan neft və qazın xarici ölkəyə ixracı olkədə valyuta gəlirlərinin artmasına və bununlada sosial-iqtisadi inkişafa nal olunmasına səbəb olmuş və artıq iqtisadiyyata yönəldilən ümumi investisiyanın tərkibində daxili investisiyanın xaricini üstələmişdir.[1]

[1]www.cabmin.gov.az-

## Azərbaycan Respublikasına qoyulmuş daxili və xarici investisyalar.

**Cədvəl 1.1**

| | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** | **2001** | **2002** | **2003** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyaları nəzərə alınmaqla | | | | | | | | | |
| Mlyn.man. | 480,7 | 800,8 | 1351,1 | 1495,1 | 1293,8 | 1289,8 | 1454,5 | 2718,0 | 4249,3 |
| Mlyn.doll. | 544,1 | 932,1 | 1694,5 | 1932,2 | 1571,0 | 1441,40 | 1561,8 | 2796,6 | 4326,3 |
| Xarici investisiyalar | | | | | | | | | |
| Mlyn.man. | 331,4 | 533,1 | 1042,4 | 1139,0 | 898,6 | 829,5 | 1016,8 | 2172,8 | 3311,0 |
| Mlyn.doll. | 375,1 | 620,5 | 1307,3 | 1472,0 | 1091,1 | 927,0 | 1091,8 | 2234,9 | 3371,0 |
| Daxili investisiyalar | | | | | | | | | |
| Mlyn.man. | 149,3 | 267,7 | 308,7 | 356,1 | 395,2 | 460,3 | 427,7 | 546 | 938,3 |
| Mlyn.doll. | 169,0 | 311,6 | 387,2 | 460,2 | 479,9 | 514,40 | 470,0 | 561,7 | 955,3 |

| **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2015** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyaları nəzərə alınmaqla | | | | | | | | | |
| 5820,3 | 6733,4 | 7415,6 | 10353,9 | 13328,0 | 10475,0 | 14118,9 | 17048,8 | 20251,1 | 21974,2 |
| 5922,8 | 7118,5 | 8300,4 | 12066,1 | 16222,0 | 13033,5 | 17591,4 | 21588,9 | 25777,8 | 28010,5 |
| Xarici investisiyalar | | | | | | | | | |
| 4496,3 | 4628,5 | 4512,2 | 5727,2 | 5625,8 | 4395,1 | 6619,7 | 6849,8 | 8102,7 | 8269,3 |
| 4575,5 | 4893,2 | 5052,8 | 6674,3 | 6847,4 | 5468,6 | 8247,8 | 8673,9 | 10314,0 | 10540,9 |
| Daxili investisiyalar | | | | | | | | | |
| 1324,0 | 2104,9 | 2901,4 | 4626,7 | 7702,2 | 6079,90 | 7499,2 | 10199,0 | 12148,4 | 13704,9 |
| 1347,3 | 2225,3 | 3247,6 | 5391,8 | 9374,6 | 7564,9 | 9343,6 | 12915,0 | 15463,8 | 17469,6 |

**Cədvəl 1.2**

**Xarici investisiyalar (mln.ABŞ dolları)**[1]

| | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** | **2001** | **2002** | **2003** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi xarici investisiya | 375,1 | 620,5 | 1307,3 | 1472,0 | 1091,1 | 927,0 | 1091,8 | 2234,9 | 3371,0 |
| o cümlədən: | | | | | | | | | |
| Maliyyə kreditləri | 220,4 | 101,5 | 196,3 | 120,0 | 336,2 | 262,9 | 192,0 | 223,0 | 238,3 |
| Neft sənayesinə | 139,8 | 416,2 | 780,1 | 891,8 | 544,5 | 546,1 | 820,5 | 1966,3 | 2972,4 |
| Birgə və xarici investisiyalı müəssisələr | 14,9 | 102,8 | 330,9 | 460,2 | 210,4 | 118,0 | 79,3 | 45,6 | 45,4 |
| ondan: | | | | | | | | | |
| Türkiyə | 6,8 | 45,3 | 129,6 | 160,3 | 67,8 | 31,6 | 11,8 | 17,2 | 17,1 |
| Niderland | - | - | - | - | - | - | - | - | - |
| ABŞ | 2,1 | 41,5 | 97,5 | 56,7 | 29,8 | 11,2 | 16,9 | 4,7 | 4,9 |
| İran | 0,9 | 1,0 | 2,6 | 40,7 | 9,2 | 2,9 | - | 2,7 | - |
| Almaniya | 1,2 | 4,2 | 16 | 2,1 | 6,2 | 1,7 | 1,2 | 1,7 | - |
| Rusiya | 0,7 | 2,3 | 5,5 | 10,3 | - | - | 1,4 | 0,7 | 1,2 |
| Böyük Britaniya | 0,7 | 0,2 | 47,2 | 47,4 | 45,8 | 6,8 | 15,1 | 9,0 | 9,0 |
| Birləşmiş Ərəb Əmirlikləri | 0,7 | 1,7 | 8,0 | 16,6 | 7,6 | 2,8 | 0,7 | 0,2 | 4,4 |
| İsveçrə | 1,2 | 3,9 | 9,5 | - | - | - | 8,3 | - | - |
| Fransa | - | - | - | - | 25,4 | 39,3 | 7,6 | 2,3 | 2,2 |
| Kipr | - | - | - | - | - | - | - | - | - |
| Çin | - | - | - | - | - | - | - | - | - |
| İtaliya | 0,1 | 0,4 | 1,5 | - | - | - | - | - | - |
| Pakistan | - | - | - | - | - | - | - | - | - |
| Yaponiya | - | - | - | - | - | 16,4 | 4 | - | |
| Digər ölkələr | 0,5 | 2,3 | 13,5 | 126,1 | 18,6 | 5,3 | 12,3 | 7,1 | 6,6 |

[1] www.economy.gov.az/

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Neft bonusu | - | - | - | - | - | - | - | - | 58,6 |
| Digər investisiyalar | - | - | - | - | - | - | - | - | 56,3 |

| 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 4575,5 | 4893,2 | 5052,8 | 6674,3 | 6847,4 | 5468,6 | 8247,8 | 8673,90 | 10314,0 | 10540,9 |
| | | | | | | | | | |
| 293,0 | 698,4 | 983,5 | 1576,6 | 2357,9 | 1438,3 | 3405,9 | 3692,5 | 3135,5 | 2655,8 |
| 4088,1 | 3799,9 | 3422,3 | 4003,3 | 3350,7 | 2412,7 | 2955,3 | 3407,8 | 4287,8 | 4935,2 |
